# Taksi şirkətlərinin sayı azalır

***Taksi sektorunda son illər müşahidə olunan kəskin dəyişikliklər və bazarın yenidən formalaşması prosesi daha bir şirkətin fəaliyyəti dayandırması ilə nəticələnib. "A TAKSİ" Məhdud Məsuliyyətli Cəmiyyətinin ləğv olunduğunu elan etməsi bu sahədə artan maliyyə təzyiqləri, sərtləşən tənzimləmə mexanizmləri və rəqabətin dərinləşməsi fonunda baş verən proseslərin növbəti nümunəsi kimi dəyərləndirilir.***

## Cəmiyyət




*"Taksi fəaliyyətinin daha məqsədli və rentabelli qurulması üçün bu sahə ilə məşğul olanların kifayət qədər maliyyə resurslarına malik olması vacibdir*

Şirkət kreditorlara müraciət edərək iki ay ərzində tələblərini AZ1025 Bakı şəhəri, Xətai rayonu, Həsən Salmani küçəsi, ev 17, mənzil 193 ünvanına təqdim etmələrini xahiş edib.

Qeyd edək ki, "A TAKSİ" MMC 2018-ci ildə dövlət qeydiyyatına alınıb. Şirkətin nizamnamə kapitalı 2000 manat təşkil edib və qanuni təmsilçisi Elmixan Mehtiyev olub. Mütəxəssislərin fikrincə, nizamnamə kapitalının nisbətən aşağı olması bazarda baş verən kəskin dəyişikliklər fonunda şirkətin maliyyə dayanıqlığını zəiflədən əsas amillərdən biri olub.

Ekspertlər hesab edir ki, "A TAKSİ" MMC-nin ləğvinin əsas səbəbləri sırasında taksi bazarında rəqabətin kəskin artması xüsusi yer tutur. Son illər iri beynəlxalq və yerli onlayn platformaların bazarda dominant mövqe tutması, tətbiq üzərindən göstərilən xidmətlərin sürətlə yayılması kiçik və orta şirkətlərin mövqeyini xeyli zəiflədib. Qiymət rəqabətinin dərinləşməsi və müştəri bazasının əsasən iri platformalar ətrafında cəmlənməsi bu tip şirkətlər üçün fəaliyyət imkanlarını məhdudlaşdırıb.

Bununla yanaşı, taksi fəaliyyətinə dair dövlət tənzimləməsinin sərtləşdirilməsi də bazar iştirakçıları üçün əlavə çətinliklər yaradıb. Avtomobillərin texniki vəziyyəti, sığorta tələbləri, sürücülərin sənədləşməsi və icazə mexanizmləri ilə bağlı xərclərin artması, maliyyə imkanları məhdud olan şirkətlər üçün ciddi yükə çevrilib. Yanacaq qiymətlərindəki artım və əməliyyat xərclərinin yüksəlməsi də ümumi mənzərəni daha da ağırlaşdırıb.

"A TAKSİ" MMC-nin bazardan çəkilməsi taksi bazarına birbaşa təsir baxımından böyük dəyişiklik yaratmasa da, ümumi tendensiyanı açıq şəkildə nümayiş etdirir. Ekspertlərin fikrincə, bu cür ləğvlər bazarda konsentrasiyanın artmasına səbəb olur. Yəni fəaliyyət göstərən şirkətlərin sayı azalır, bazar payı isə əsasən iri oyunçuların əlində cəmlənir. Bu proses qısa müddətdə xidmətin daha sistemli təşkilinə şərait yarada bilsə də, uzunmüddətli perspektivdə qiymət siyasətinə və rəqabət mühitinə təsirsiz ötüşmür.

Digər tərəfdən, şirkətin ləğvi sosial aspektdən də müəyyən nəticələr doğurur. "A TAKSİ" MMC ilə əməkdaşlıq edən sürücülər ya fəaliyyətlərini dayandırmalı, ya da alternativ platformalara keçməli olurlar. Bu isə taksi sektorunda məşğulluğun strukturunda dəyişikliklər yaradır və sürücülərin gəlir sabitliyinə təsir göstərir.

Ümumilikdə, "A TAKSİ" Məhdud Məsuliyyətli Cəmiyyətinin ləğvi Azərbaycan taksi bazarında gedən təbii seçmə prosesinin bir hissəsi kimi qiymətləndirilir. Mövcud şəraitdə yalnız maliyyə baxımından dayanıqlı, texnoloji yeniliklərə uyğunlaşa bilən və tənzimləmə tələblərinə cavab verən şirkətlərin bazarda qalacağı gözlənilir. Bu baxımdan, baş verən hadisə taksi sektorunda fəaliyyət göstərən digər şirkətlər üçün də ciddi xəbərdarlıq xarakteri daşıyır.

**■ Mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov da taksi sektorunda yaranmış vəziyyətin əsas səbəblərinə diqqət çəkib. Ekspertin sözlərinə görə, taksi fəaliyyətinin daha məqsədli və rentabelli qurulması üçün bu sahə ilə məşğul olanların kifayət qədər maliyyə resurslarına malik olması vacibdir.**

Onun fikrincə, hazırda bazarda son dərəcə ciddi rəqabət mövcuddur və bu rəqabət şəraitində qiymətlərin tənzimlənməsi, yeni avtomobillərin alınaraq ölkəyə gətirilməsi, onların istismarı və saxlanılması böyük maliyyə vəsaiti tələb edir. Məhz bu səbəbdən taksi bazarı bəzi hüquqi və fiziki şəxslər üçün artıq cəlbedici görünmür və gəlirlilik səviyyəsi gözləntiləri doğrultmadıqda maliyyə resursları avtomatik olaraq digər sahələrə yönəldilir.

Aslan Əsədov qeyd edib ki, bir müddət əvvəl taksi sektoru yüksək gəlirli sahə kimi qəbul olunurdu və bu səbəbdən bir çox şəxslər xeyli sayda avtomobil alaraq onları istismara buraxmışdı. Lakin mövcud şərait bu yanaşmanı dəyişib. Ekspert xüsusilə 2026-cı il yanvarın 1-dən etibarən xaricdən idxal olunan hibrid və elektrik avtomobillərinə tətbiq edilən ƏDV və gömrük rüsumu güzəştlərinin müddətinin başa çatmasının sektora əlavə təzyiq yaratdığını vurğulayıb. Onun sözlərinə görə, bu amil xərcləri daha da artırır və nəticə etibarilə bazardan çəkilmə hallarının çoxalmasına səbəb ola bilər. Bu baxımdan ekspert yaxın dövrdə taksi sektorunda daha bir neçə şirkətin fəaliyyətini dayandırması ehtimalını yüksək qiymətləndirir

**✍ Sevinc**